“UNİBANK” Kommersiya Bankı”
Açıq Səhmdar Cəmiyyətinin İdarə
Heyətinin 02 aprel 2024-cü il
tarixli Qərarı (Protokol № 36)
tarixli Qərarı ilə təsdiq edilmişdir.
İdarə Heyətinin Sədri

________________________F. Abuşov

**“Leobank-dan aylıq mükafatlar” adı altında**
**TİRAJLI STİMULLAŞDIRICI LOTEREYANIN ŞƏRTLƏRİ**

## 1. Ümumi müddəalar

**1.1.** Bu Şərtlər «Lotereyalar haqqında» Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Kollegiyasının 05.12.2022-ci il tarixli 21 nömrəli Qərarı ilə təsdiqlənmiş «Stimullaşdırıcı Lotereyanın təşkili və keçirilməsi Qaydası»-na əsasən keçirilir.

**1.2.** Şərtlər **“Leobank-dan aylıq mükafatlar”** tirajlı stimullaşdırıcı lotereyanın (bundan sonra «lotereya» adlandırılacaq) təşkili və keçirilməsi ilə bağlı məlumatları əks etdirən rəsmi sənəddir.

**1.3.** Şərtlərdə istifadə olunan əsas anlayışlar «Lotereyalar haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş mənada başa düşülür və tətbiq edilir.

## 2. Lotereyanın təşkili və keçirilməsi qaydaları

**2.1.** Lotereyanın təşkilatçısı barədə məlumatlar aşağıdakı kimidir:
**Lotereya təşkilatçısı:** “Unibank” Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyəti;
**Hüquqi ünvan:** Bakı şəhəri, nəsimi rayonu, 384-cü məhəllə, Rəşid Behbudov küçəsi 55;
**VÖEN:** 1300017201
“Unibank” Kommersiya Bankı” ASC Azərbaycan Respublikası Mərkəzi Bankının 14 dekabr 2010-cu il tarixli 73 saylı lisenziyası (08 yanvar 2003-cü il tarixli lisenziyanın yeni forması) əsasında fəaliyyət göstərir.
**Əlaqə üçün:** Təşkilatçının əməkdaşı Mustafazadə Aylin Fuad qızı;
**Telefon:** +99412 541-33-33; daxili (7068)
**Stimullaşdırıcı lotereyanın obyekti:** bütün Leobank istifadəçiləri tərəfindən Leobank mobil tətbiqində lotereya şərtlərinin 2.6.5 bəndində göstərilən xidmətlərin istifadəsi. Lotereya, “Leobank” mobil tətbiqindən istifadə edən müştərilərin sayını artırmaq məqsədi ilə keçirilir.

**2.2.** Lotereyanın keçirilmə müddəti aşağıdakı kimidir:
Başlama tarixi: 08.04.2024
Bitmə tarixi: 23.12.2024

**2.3.** Uduş fondunun oynanılması hər ay 1 tiraj olmaqla cəmi 8 tirajla həyata keçiriləcəkdir. Tirajların tarixləri aşağıdakı kimi müəyyən edilmişdir:

- 06.05.2024
- 06.06.2024
- 08.07.2024
- 06.08.2024
- 06.09.2024
- 07.10.2024
- 06.11.2024
- 27.12.2024

**2.4.** Lotereya Azərbaycan Respublikasının ərazisində keçiriləcək.

**2.5.** Şərtlərin 2.6.5-ci bəndində sıralanmış əməliyyatlardan (ən azından birinin icrasından sonra) bütün Leobank müştəriləri aylıq lotereyada iştirak etmə şansını qazanırlar.

**2.6.** Hər ayın əvvəlində bütün Leobank kartı olan müştərilərə mobil tətbiqdə lotereya şərti və iştirak dəvəti push-bildiriş formasında göndəriləcək.

2.6.1. İştirak dəvətini qəbul etmiş müştərilər lotereyada iştirak haqqı qazanacaqlar.

2.6.2. İştirak haqqını qazanmış müştərilər 2.6.5-ci bənddə sıralanmış əməliyyatların arasından ən az (məsələn, müştəri ƏDV geri al əməliyyatı heç istifadə etməyibsə, və ya ƏDV geri al əməliyyatı müştərinin digər əməliyyatlara münasibətdə ən az istifadə etdiyi əməliyyatdırsa) istifadə etdikləri əməliyyatı həyata keçirdikdə, belə müştərilərə lotereyada 10 qat yüksək şans veriləcəkdir.

2.6.3. İştirakçı hər ay üzrə maksimum 20 şans qazana bilər (hər 10 əməliyyat üçün 1 şans və onlarla müqayisədə (2.6.2-ci bəndində izah olunmuş prinsip ilə) daha az istifadə edilən 11-ci əməliyyat üçün 10 şans əldə edəcəkdir). Məsələn, bir müştəri 1 ay ərzində 9 əməliyyat icra edəcəksə və bu əməliyyatlar içərisində etdiyi ancaq 1 əməliyyata görə 10 şans veriləcək (hər ay üçün bir dəfə 10 şans haqqı qazanmağa var).

2.6.4. Hər ay bitdikdən sonra ən gec tiraj gününə qədər müştərilərin əməliyyatları təhlil olunacaq. Təhlildən sonra 10 şans veriləcək əməliyyat müəyyən olunacaq və bu barədə Leobank tətbiqində push-bildiriş (məlumat) göndəriləcək. Şəxs lotereya müddətində qaydaların 2.6.5-ci bəndində sadalanan əməliyyatlardan təkrar istifadə etsə müştəri üçün ikinci dəfə ən az istifadə etdiyi əməliyyata görə 10 şans qazanma hüququ nəzərdə tutulmamışdır.

2.6.5. Tirajlı stimullaşdırıcı lotereya müddətində "Leobank" mobil tətbiqi vasitəsilə bank tərəfindən təyin olunmuş əməliyyatların siyahısı aşağıda qeyd olunub:

1. POS terminallarda və İnternet səhifələrində ödəniş əməliyyatını etmək;
2. Apple Pay və Google Pay vasitəsilə ödəniş əməliyyatını etmək;
3. Karta köçürmə əməliyyatını müvafiq üsullarla etmək: "əlaqələr arasında", "ödənişi təkrarla"; "ödənişlə cavabla" vasitəsilə ödəniş əməliyyatını etmək;
4. "Digər ödənişlər" bölməsində mobil nömrə balansının artırmaq;
5. "Digər" bölməsində "Xəzinə" xüsusiyyətindən istifadə edib, "Xəzinə" yaratmaq və balansını artırmaq;
6. "Digər ödənişlər" bölməsində "Kommunal və İnternet", "DYP" cərimələri və "Parkinq ödənişi" funksiyaları vasitəsilə ödəniş əməliyyatını etmək;
7. "ƏDV geri al" bölməsində qəbz əlavə etmək;
8. "Silkələ və ödə" vasitəsilə vəsait köçürməsini həyata keçirmək;

9. “Digər” bölməsində “Dostunuzu dəvət edin” funksiyası vasitəsilə ən azı bir nəfər dəvət etmək (həmin dost kartı aktivləşdirdikdən sonra qeyd olunur);

10. “Sərmayələr” bölməsində səhm və ya kriptovalyuta alış əməliyyatını etmək;

11. “Ödənişi dostlarla böl” funksiyası vasitəsilə ödəniş əməliyyatını etmək.

**2.7.** İstifadəçi “Leobank” mobil tətbiqində push-bildiriş vasitəsilə aylıq lotereyada öz iştirakını təsdiq və ya imtina edə biləcək.

**2.8.** Lotereyada iştirak etmək üçün Leobank istifadəçisi olmaq mütləqdir.

**2.9.** Lotereyada iştirak etmək şansını qazanan müştərilər Bankın internet səhifəsinə (www.leobank.az daxil olaraq lotereyanın şərtləri ilə tam şəkildə tanış ola bilərlər. Eyni zamanda, həmin internet səhifəsi vasitəsilə şərtləri çap edə və ya elektron poçt ünvanına göndərə bilərlər.

**2.10.** Lotereyada iştirak etmək şansını qazanmış müştərilərin eyniləşdirməsi üçün 6 (altı) simvoldan (rəqəmdən) ibarət olan unikal elektron nömrələrdən istifadə olunacaq. Misal: 923248, 107267, 318317. Müştərinin əldə etdiyi unikal elektron nömrəli şans “Leobank” tətbiqində əks olunacaq. Lotereya iştirakçılarının hər ay əldə etdikləri şanslarının cəmi barədə Leobank tətbiqində məlumat əks olunacaqdır.

**2.11.** Lotereyada iştirak şansı qazanan müştərilərə dair aşağıdakı məlumatlar Microsoft Excel proqramında hazırlanmış xüsusi siyahıya daxil edilir:

2.11.1. Lotereya iştirakçısının adı, soyadı, atasının adı, doğum tarixi;

2.11.2. Lotereya iştirakçısının şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və FİN kodu;

2.11.3. Lotereya iştirakçısının mobil nömrəsi və elektron poçt ünvanı.

**2.12.** Lotereyanın uduş fondu aşağıdakı kimidir:

- Apple iPhone 15 (ümumi 80 ədəd, hər ay 10 ədəd)
- 400 ədəd hədiyyə kartı (100 AZN) (ümumi 400 ədəd, hər ay 50 ədəd)

**2.13.** Qalib tərəfindən uduşun alınması hüququnun üçüncü şəxslərə güzəşt edilməsinə yol verilmir.

**2.14.** Əldə edilən qeyri-pul uduşlarının pul ekvivalentinin ödənilməsinə yol verilmir.

**2.15.** Bank tərəfindən uduş fonduna əlavə vəsaitin qoyulması və həmin vəsaitin udulmamış hissəsinin geri götürülməsi nəzərdə tutulmamışdır. Əgər qalib müştəri 2.24-cü bənddə qeyd olunan müddət ərzində hədiyyəni əldə etmək üçün müraciət etmədiyi təqdirdə hədiyyələr təşkilatçıda (Bankda) qalacaq.

**2.16.** “Leobank-dan aylıq mükafatlar” tirajlı stimullaşdırıcı lotereya Bakı şəhəri, Nəsimi rayonu, 384-cü məhəllə, Rəşid Behbudov küçəsi 55 ünvanında keçiriləcəkdir.

**2.17.** Lotereyada iştirak “Unibank” Kommersiya Bankı” ASC-nin işçilərinə və hüquqi şəxslərə şamil edilmir.

**2.18.** Uduş fondunun oynanılması, xüsusi kompüter proqramı “UniLotto” informasiya elektron sistemi vasitəsilə (bundan sonra “Proqram” adlandırılacaq) elektron püşkatma qaydasında həyata keçirilir. Hər bir uduş ayrı ayrılıqda püşkatma yolu ilə oynanılacaq. Birinci qalib müəyyən olunduqdan sonra digər qaliblərin seçilməsi püşkatma yolu ilə növbəli şəkildə keçiriləcəkdir. Lotereya “Unibank” Kommersiya Bankı” ASC-yə məxsus olan “Leobank”ın https://www.instagram.com/leobank.az/ səhifəsində canlı olaraq yayımlanacaq.

**2.19.** Hər bir lotereya iştirakçısının onu digər iştirakçılardan fərqləndirən bir eyniləşdirmə nömrəsi olacaqdır.

**2.20.** Lotereyanın uduş fondunun qanunvericiliyə uyğun olaraq oynanılmasına nəzarət məqsədi ilə tiraj komissiyası və komissiyasının sədri təyin ediləcəkdir. Uduş fondunun

oynanılmasına azı 1 (bir) iş günü qalmış tiraj komissiyasının üzvləri haqqında məlumat Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunur. Tiraj komissiyasının sədri müəyyən edilmiş tarixdə, vaxtda və yerdə toplaşaraq uduş fondunun oynanılmağa başlandığını elan edir. Eyni məqsədlərlə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin lotereyaların keçirilməsinə nəzarəti həyata keçirən müvafiq strukturunun əməkdaşları üçün lotereyanın keçirilməsində istifadə olunan xüsusi proqram təminatına giriş imkanı (istifadəçi adı və şifrə) Bank tərəfindən təqdim edilir.

**2.21.** Lotereyada oynanılan uduş fondunun adı elan olunur. Lotereyanın uduş fondunun oynanılması üçün tiraj komissiyasının sədri və ya üzvlərindən biri proqramın müvafiq düyməsini basmaqla işə salır və bir müddətdən sonra dayandırır. Proqram lotereyanın oynanıldığı tirajın uduş fondunun sayına uyğun olaraq təsadüfi eyniləşdirmə nömrələrini seçir. Bu nömrələr uduşlu sayılır. Uduşlu nömrə kompüterin monitorunda göstərilir və tiraj komissiyası tərəfindən bu barədə müvafiq qeydiyyat aparılır.

**2.22.** Bank uduş fondunun oynanıldığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq Kütləvi İnformasiya Vasitələrində və 7 (yeddi) iş günündən gec olmayaraq qaliblərə müvafiq uduşların təqdim olunması müddəti və qaydası barədə məlumat verir.

**2.23.** Uduşlu lotereya biletlərinin Bank tərəfindən qəbulu müddəti həmin lotereyanın (tirajın) uduş fondu oynanıldığı tarixdən etibarən 7 (yeddi) iş günündən gec olmayaraq başlanılacaq və 90 (doxsan) iş günü ərzində davam edəcəkdir. Qeyd olunan müddətdə lotereya qalibi şəxsiyyəti təsdiq edən sənədlə Təşkilatçının yerləşdiyi ünvana (Bakı şəhəri, Nəsimi rayonu, R. Behbudov küçəsi 55, məhəllə 384) yaxınlaşa bilərlər.

**2.24.** Uduş lotereyanın qalibi olan müştəriyə tələb irəli sürdüyü tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq təqdim ediləcək.

**2.25.** "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən lotereya iştirakçısı 18 yaşına çatmış, könüllü şəkildə lotereyada iştirak edən lotereya biletinin (ona bərabər tutulan digər məlumat daşıyıcısının) sahibidir.

**2.26.** Bank lotereyanın şərtlərinə edilmiş əlavələr və (və ya) dəyişikliklər haqqında məlumatı uduş fondunun oynanılması tarixinə azı 3 (üç) iş günü qalmış media ilə elan edəcəkdir.

## 3. Yekun müddəalar

**3.1.** Lotereyanın təşkili və keçirilməsi ilə əlaqədar digər münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

**3.2.** Bu şərtlər lotereya iştirakçılarının tanış ola bilməsi üçün "525-ci qəzet"də, "Leobank"ın rəsmi saytında (www.leobank.az) açıqlanır və lotereyanın təşkilatçısı və iştirakçıları üçün məcburi qüvvəyə malikdir.

**3.3.** Qaliblərin siyahısı və onlar haqqında məlumat tirajdan sonra www.leobank.az saytında və "525-ci qəzet"də yerləşdiriləcəkdir.